# RÜBLÜK İCMAL

*“2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”*




İCMAL

YENİ TƏYİNATLAR

TƏDBİRLƏR VƏ NAİLİYYƏTLƏR

DÖVLƏT PROQRAMI MƏZUNLARININ ELMİ TÖHFƏLƏRİ

MÜKAFATLAR

## RÜBLÜK İCMALIN MƏQSƏDİ

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” təqaüdçüləri təhsil aldıqları ali məktəblərdə yüksək akademik göstəricilər nümayiş etdirməklə yanaşı, eyni zamanda Azərbaycan tarixi və mədəniyyətinin təbliğində, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və ölkəmiz üçün digər əhəmiyyətli mövzular ətrafında dünya ictimaiyyətinin məlumatlandırılmasında mühüm rol oynayırlar. 2014-cü ildən Təhsil Nazirliyi Dövlət Proqramı çərçivəsində təhsil alan və məzun olmuş təqaüdçülərin uğurlarının və müvəffəqiyyət hekayələrinin ictimaiyyətə çatdırılması üçün yeni "Rüblük İcmal” layihəsini təqdim edir. Rüblük İcmalın bütün buraxılışları ilə aşağıdakı keçiddən tanış ola bilərsiniz: **http://xaricdetehsil.edu.gov.az/cdphaqqinda/rblkicml/**

# YENİ TƏYİNAT

YANVAR-APREL
2021

## RÜFƏT ƏZİZOV

"2007-2015 Dövlət Proqramı" çərçivəsində 2014-2016-cı illərdə magistratura səviyyəsində Niderlandın "Maastricht School of Management" ali təhsil müəssisəsindən məzun olmuş Rüfət Eyvaz oğlu Əzizov Azərbaycan Respublikasının Təhsil İnstitutunda direktor vəzifəsinə təyin edilmişdir.



## ÜLKƏR KAZIMOVA

"2007-2015 Dövlət Proqramı" çərçivəsində 2014-2015-ci illərdə magistratura səviyyəsində ABŞ-ın "University of Florida" ali təhsil müəssisəsindən məzun olmuş Ülkər Şahin qızı Kazımova Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi qanunvericiliyi şöbəsinin müdiri vəzifəsinə təyin edilmişdir.



## ƏLİ DADAŞZADƏ

"2007-2015 Dövlət Proqramı" çərçivəsində 2009-2013-cü illərdə bakalavriat səviyyəsində Böyük Britaniyanın "University of Bath" ali təhsil müəssisəsindən məzun olmuş Əli Məzahir oğlu Dadaşzadə Azərbaycan Beynəlxalq Bankında Maliyyə menecmenti departamentinin direktor vəzifəsinə təyin edilmişdir.



## TOFİQ ƏHMƏDOV

"2007-2015 Dövlət Proqramı" çərçivəsində 2014-2015-ci illərdə magistratura səviyyəsində Çin Xalq Respublikasının "University of Hong Kong" ali təhsil müəssisəsindən məzun olmuş Tofiq Teymur oğlu Əhmədov Azərbaycan Dövlət Pedaqoji Universitetinin ABŞ-ın Corc Vaşinqton Universiteti ilə olan ikili diplom proqramı üzrə direktor vəzifəsinə təyin edilmişdir.



## ARZU TAİRQULİYEVA

"2007-2015 Dövlət Proqramı" çərçivəsində 2012-2013-cü illərdə magistratura səviyyəsində Böyük Britaniyanın "University of Glasgow" ali təhsil müəssisəsindən məzun olmuş Arzu Ələmdar qızı Tairquliyeva Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyində Təhsil və Təlim sektorunun rəhbəri vəzifəsinə təyin edilmişdir.



## RAMİL MƏHƏRRƏMOV

"2007-2015 Dövlət Proqramı" çərçivəsində 2015-2016-cı illərdə magistratura səviyyəsində ABŞ-ın "Massachusetts Institute of Technology" ali təhsil müəssisəsindən məzun olmuş Ramil Müzəffər oğlu Məhərrəmov Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Daxili nəzarət və audit şöbəsinin müdiri vəzifəsinə təyin edilmişdir.





## MİRZƏ MİRZƏYEV

"2007-2015 Dövlət Proqramı" çərçivəsində 2013-2014-cü illərdə magistratura səviyyəsində Böyük Britaniyanın "University of Queen Mary" ali təhsil müəssisəsindən məzun olmuş Mirzə Vahid oğlu Mirzəyev Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin yanında Dövlət Vergi Xidmətinin struktur vahidində olan Vergi auditi Baş İdarəsinin yeni rəis müavini vəzifəsinə təyin edilmişdir.

## NURANƏ TEYMUROVA



"2007-2015 Dövlət Proqramı" çərçivəsində 2008-2009-cu illərdə magistratura səviyyəsində Böyük Britaniyanın "Bristol University" ali təhsil müəssisəsindən məzun olmuş Nuranə Kamal qızı Teymurova "Paşa Sığorta" ASC-nin "Agile" Transformasiya Xidmətinə rəhbər təyin edilmişdir.



## HÜSEYN ƏLİYEV

"2007-2015 Dövlət Proqramı" çərçivəsində 2013-2014-cü illərdə magistratura səviyyəsində Böyük Britaniyanın "University of Newscastle" ali təhsil müəssisəsindən məzun olmuş Hüseyn Firuz oğlu Əliyev "Morgan Stanley"nin Frankfurtdakı nümayəndəliyində Likvidliyin tənzimlənməsi üzrə direktor vəzifəsinə təyin edilmişdir.

## VÜSAL MUSAYEV



"2007-2015 Dövlət Proqramı" çərçivəsində 2009-2010-cu illərdə magistratura səviyyəsində Böyük Britaniyanın "University of Royal Holloway" ali təhsil müəssisəsindən məzun olmuş Vüsal Oqtay oğlu Musayev Azərbaycan Respublikasının Energetika Nazirliyində nazirin iqtisadi məsələlər üzrə müşaviri vəzifəsinə təyin edilmişdir.

# 2 FEVRAL-GƏNCLƏR GÜNÜNDƏ VƏTƏN MÜHARİBƏSİ İŞTIRAKÇISI OLAN DÖVLƏT PROQRAMI MƏZUNLARI İLƏ ONLAYN GÖRÜŞ



Təhsil nazirinin müavini Firudin Qurbanov 2 Fevral-Gənclər Günü münasibətilə Vətən müharibəsi iştirakçısı olan dövlət hesabına xaricdə təhsil almış gənclərlə onlayn görüş keçirib. Firudin Qurbanov görüş iştirakçılarını 2 Fevral - Gənclər Günü və Vətən müharibəsində qazanılmış Qələbə münasibətilə təbrik edib, şəhidlərimizə Allahdan rəhmət diləyib, yaralılarımızın tezliklə sağalmasını arzulayıb. Nazir müavini gənclər gününün təsis edilməsi və onun tarixi haqqında məlumat verib. Torpaqlarımızın işğaldan azad olunmasının xalqın, xüsusilə də gənclərin ölkə Prezidentinin dəmir yumruğu altında vahid bir güc olaraq birləşməsi və Müzəffər Ordumuz sayəsində mümkün olduğunu vurğulayıb. Bildirib ki, işğal altında olan torpaqlarımızın azad edilməsi üçün səfərbərliyə cəlb edilən, yaralıların müalicəsi üçün tibbi xidmətə könüllü yollananlar sırasında dövlət hesabına xaricdə təhsil almış şəxslər də olub.

# MƏZUNLARIN NAİLİYYƏTLƏRİ

Dövlət Proqramı çərçivəsində 2012-2015-ci illərdə Heydelberq Universitetinin tibb fakültəsində doktorantura təhsili almış **Aysel Əhədova** xərçəng xəstəliklərinin tədqiqi sahəsində uğurlu nəticələrinə görə, 2020-ci il üzrə Anita və Fridrix Roitner mükafatına layiq görülüb.

***A.Əhədovanın dünya şöhrətli Haydelberq Universitetinin alimləri ilə birgə apardığı elmi işinin nəticələri Almaniyada 1860-cı ildən çap edilən, hazırda tibb və cərrahiyyə sahəsində Avropanın ən nüfuzlu jurnallarından biri sayılan "Langenbecks Archive of Surgery" jurnalında dərc olunub.***






Britaniya Şurası (British Council) və Böyük Britaniyanın Azərbaycandakı səfirliyi "Study UK Alumni Awards 2021"nin cari il üçün filanistlərini elan edib. "Professional Achievement Award " təltifi üzrə namizədlərin arasında Böyük Britaniyanın Esseks Universitetini bitirmiş  Dövlət Proqramı məzunu **Nərmin Axundova** da yer almışdır.

## ANAR QOCAYEV

“2007-2015 Dövlət Proqramı” çərçivəsində 2013-2017-ci illərdə Kornell Universitetində rezidentura təhsili almış Anar Qocaayev ABŞ-ın “The American Board of Obstetrics and Gynecology” kollegiyasına üzv olmaqla yanaşı, Azərbaycanın xaricdə rezidentura təhsili almış ilk tələbələrindən biri olaraq ABŞ-da rezidenturadan sonrakı təhsil pilləsinə (fellowship) qəbul olaraq ilkə imza atan azərbaycanlı olub.




CERTIFICATE
OF A PRESENTATION

Online Academic Panel Conference and Discussion – "Recent Challenges in Modern Science"

Turan Suleymanov

Development of Social Entrepreneurship in Azerbaijan- Analysis and Policy Recommendations

27/03/2021
DATE

SIGNATURE

EIRD.CO

European Institute for Research and Development

## TURAN SÜLEYMANOV

"2007-2015 Dövlət Proqramı” çərçivəsində magistratura səviyyəsində "Linkoping University" ali təhsil müəssisəsinin məzunu Turan Süleymanova "European İnstitute for Research and Development" tərəfindən sertikat təqdim olunmuşdur.

## CAVID ZAİDOV

"Azərbaycan kinematoqrafiyasının inkişaf Konsepsiyası” çərçivəsində təqdim olunan müsabiqədə "London International Film School" ali təhsil müəssisəsindən magistratura səviyyəsi üzrə təhsil almış Cavid Zaur oğlu Zaidovun "Nərgiz" adlı tammetrajlı film layihəsi Dövlət sifarişi ilə film istehsalı üçün münsiflər tərəfindən seçilmişdir.



# MƏZUNLARIN ELMİ TÖHFƏLƏRİ

Türkiyənin İstanbul Universitetindən məzun olmuş **Oruc Allahverdiyevin** "Electrochemical evaluation of favipiravir usead as antiviral option in the treatment of COVİD-19" adlı tibbi məqaləsi "Elsevier" jurnalında dərc olunub. Keçid: https://www.sciencedirect.com/science/article/abs/pii/S0003267021002440

Contents lists available at ScienceDirect
Analytica Chimica Acta
journal homepage: www.elsevier.com/locate/aca
ELSEVIER

First electrochemical evaluation of favipiravir used as an antiviral option in the treatment of COVID-19: A study of its enhanced voltammetric determination in cationic surfactant media using a boron-doped diamond electrode☆

Shabnam Allahverdiyeva [a], Oruc Yunusoğlu [b], Yavuz Yardım [c, **], Zühre Şentürk [d, *]
[a] Van Yuzuncu Yil University, Faculty of Science, Department of Biochemistry, 65080, Van, Turkey
[b] Van Yuzuncu Yil University, Faculty of Medicine, Department of Pharmacology, 65080, Van, Turkey
[c] Van Yuzuncu Yil University, Faculty of Pharmacy, Department of Analytical Chemistry, 65080, Van, Turkey
[d] Van Yuzuncu Yil University, Faculty of Science, Department of Analytical Chemistry, 65080, Van, Turkey

H I G H L I G H T S

- The first report on the electrochemical investigation of favipiravir.
- Usefulness of the BDD electrode in the presence of CTAB.
- Practical applicability in tablet and urine samples.

G R A P H I C A L A B S T R A C T



A R T I C L E I N F O

Article history:
Received 9 January 2021
Received in revised form
20 February 2021

A B S T R A C T

Favipiravir, a promising antiviral agent, is undergoing clinical trials for the potential treatment of the novel coronavirus disease 2019 (COVID-19). This is the first report for the electrochemical activity of favipiravir and its electroanalytical sensing. For this purpose, the effect of cationic surfactant, CTAB was



Türkiyənin Hacettepe universitetindən məzun olmuş **Tural Rəhimlinin** "Endoscopic Endonasal Approach to Giant pituitary adenomas" adlı tibbi məqaləsi "World Neurosurger" jurnalında dərc olunmaq üçün qəbul olunub.

ACCEPTANCE NOTIFICATION
Ms. Ref. No.: WNS-20-7962R1
Title: Endoscopic Endonasal Approach to Giant pituitary adenomas. Surgical outcomes and review of the literature.

Dear Dr. Rahimli,

I am pleased to confirm that your paper Endoscopic Endonasal Approach to Giant pituitary adenomas. Surgical outcomes and review of the literature. has been accepted for publication in World Neurosurgery.



Türkiyənin Ege universitetindən məzun olmuş **Rəşad İsmayılovun** "Tsukamurella paurometabola peritonitis in a patient on automated peritoneal dialysis" adlı tibbi məqaləsi İspaniyanın "SCIEX" jurnalında dərc olunub. Keçid: https://pubmed.ncbi.nlm.nih.gov/33358498/

Case Reports

**Tsukamurella paurometabola peritonitis in a patient on automated peritoneal dialysis**

[Article in En, Spanish]

Rashad Ismayilov et al. Enferm Infecc

# TƏLTİFLƏR

*"2007-2015-ci illərdə Azərbaycan Gənclərinin Xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"*




## GÜNAY KAZIMZADƏ

***"Azerbaijan Woman Awards"***

Dövlət Proqramı məzunu Günay Kazımzadə Beynəlxalq "Business Woman" jurnalının rəsmi tərəfdaşlığı ilə "Azerbaijan Woman Awards"la təltif olunmuşdur.

## CEYLA SEYİDOVA

***"İlin peşəkar gənci"***

Dövlət Proqramı məzunu Ceyla Seyidova 2 Fevral-Gənclər günü münasibətilə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən "İlin peşəkar gənci" fəxri adı ilə təltif olunub.






# "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"

**YANVAR-APREL 2021**

## RÜBLÜK İCMAL

*Hörmətli Dövlət Proqramı təqaüdçüləri, Rüblük icmalın növbəti buraxılışlarında öz uğurlarınızı, nailiyyətlərinizi görmək istəyirsinizsə, müvafiq məlumatları bizimlə paylaşmağınızı tövsiyə edirik.*



**Nərmin Abdurəhmanova**
**(narmin.abdurahmanova@edu.gov.az)**



**Günel Orucova**
**(gunel.orucova@edu.gov.az)**

Dövlət Proqramı Məzunlar Şəbəkəsi/State Program Alumni Network

Dövlət Proqramı çərçivəsində xaricdə təhsil alan Azərbaycanlı gənclər qrupu